

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 197 (21.607)

20 oktyabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax rayonuna səfərə gedib.

Oktyabrın 19-da Qazax-Kosalar avtomobil yolu yenidənqurma və əsaslı bərpadan sonra istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolun açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax rayonunda "Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə yaxından tanış olub, 110/35/6 kilovoltluq "Daş Salahlı" yarımstansiyasının, Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının açılışlarında iştirak edib.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağstafa rayonuna səfərə gedib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafaya səfəri çərçivəsində əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə tanış olub, "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində yaradılmış "Modern" mebel fabrikinin, "Karvan-L EKO" sənaye parkında inşası başa çatdırılan müəssisələrin və istixana kompleksinin, Ağstafa şəhərində Musiqi Mərkəzinin açılışlarında, "Ağstafa Aqroservis" MMC-nin nəzdində yaradılacaq taxıl və un məmulatları istehsalı kombinatının taxıl dəyirmanının təməlqoyma mərasimində iştirak edib.

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 19 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda energetika sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin əməkdaşları da vardır.

**Cabbarov Bayram İsmayıl oğlu**

**Məmmədov Abbas Mənaf oğlu**

**Sərxanbəyov Cəmaləddin Yusif oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

# Naxçıvan şəhərində yeni yaşayış binası istifadəyə verilmişdir

Bu gün ölkəmizdə həyata keçirilən sosial tədbirlər içərisində mənzil tikintisi xüsusi yer tutur. Şəhər, qəsəbə və kəndlərimizdə yeni yaşayış binaları tikilir, məskunlaşma ilbəil artır. Son illər çoxmənzilli ictimai yaşayış binalarının tikilməsi insanların rahatlığını təmin etməklə yanaşı, Naxçıvan şəhərinin arxitektura quruluşunu da zənginləşdirmişdir.





Oktyabrın 19-da Naxçıvan şəhərinin Heydər Əliyev prospektində inşa olunan 19 nömrəli yeni ictimai yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək demişdir: İnsanların yaşayış şəraitinin yaxşılaşdırılması və rahat mənzillərlə təmin olunması onların həyat tərzinin göstəricisidir. Çünki ölkədə yol düzgün seçiləndə, inkişaf və sabitlik təmin olunanda sosial tədbirlər də uğurla həyata keçirilir. Bu gün ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin yolunun davam etdirilməsinin və qəbul olunan dövlət proqramlarının nəticəsidir ki, insanların mənzil şəraiti yaxşılaşdırılır, evləri plana düşən vətəndaşlar daha müasir və rahat mənzillərlə təmin olunur, qayğıya ehtiyacı olanlara yeni evlər verilir, müasir yaşayış binaları tikilir. Naxçıvan şəhərində yeni yaşayış binasının istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.

Ali Məclisin Sədri demişdir: Vaxtilə Sovetlər Birliyi dövründə ölkəmizdə, eləcə də muxtar respublikada mənzillər mərkəzdə təsdiq olunmuş standart layihələr əsasında tikilir, arxitektura quruluşu nəzərə alınmırdı. Lakin bu gün Azərbaycan müstəqil dövlətdir.



Müstəqilliyin bəhrələrindən biri də müasir arxitektura üslubunda yaşayış binalarının tikilməsi, insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Son illər Naxçıvan şəhərində yeni yaşayış kompleksləri tikilib istifadəyə verilmişdir. Hazırda "Gənclər şəhərciyi"nin tikintisi davam etdirilir. Bu gün istifadəyə verilən bina müasir arxitektura həllinə malikdir. Binada hər biri 180-190 kvadratmetr olan 32 mənzil, birinci mərtəbəsində isə xidmət sahəsi yaradılmaqla 58 yeni iş yeri açılmışdır.

Ali Məclisin Sədri binanın tikintisində əməyi olanlara təşəkkür etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 10 mərtəbədən ibarət olan binada 32 mənzil vardır. Dördotaqlı mənzillərdən 16-nın sahəsi 180, 16-nın sahəsi isə 190 kvadratmetrdir. Mənzillərdə fərdi istilik və mərkəzi antenna sistemi quraşdırılmış, daimi su və optik kabel xətti çəkilmişdir. İsti, soyuq və rütubətə davamlı izolyasiya qatına malik olan binanın birinci mərtəbəsində mağaza, zirzəmidə isə anbar və avtomobil dayanacağı yerləşir. Binada 2 sərnişin və 1 yük lifti istifadəyə verilmişdir. Yanğın təhlükəsizliyi məqsədilə hər mərtəbə su hidrantı ilə təchiz olunmuş, ehtiyat çıxış nərdivanları qoyulmuşdur.

Ali Məclisin Sədri binanın birinci mərtəbəsindəki mağazaya baxmışdır. Qeyd olunmuşdur ki, ümumi sahəsi 687 kvadratmetr olan mağazada ərzaq məhsullarının və gündəlik tələbat mallarının satışı həyata keçirilir, aptek fəaliyyət göstərir. Burada muxtar respublikada istehsal olunan məhsullarla yanaşı, xarici ölkələrdə istehsal edilən və mənşə sertifikatı olan məhsullar da satışa çıxarılır.

Ali Məclisin Sədri yerli məhsullara üstünlük verilməsi və satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət olunmasının vacibliyini bildirmişdir.

Binanın həyətində də abadlıq işləri aparılmış, avtomobil dayanacağı yaradılmışdır.

# Naxçıvan şəhərindəki çoxmənzilli yaşayış binaları yenidən qurulur

Naxçıvan şəhərində mövcud yaşayış binalarının yenidən qurulması davam etdirilir. Bu sahədə görülən işlər çərçivəsində Naxçıvan şəhərinin "İstiqlal" küçəsindəki 93 və 99 nömrəli ictimai yaşayış binaları əsaslı şəkildə yenidən qurulmuşdur.

Oktyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binalarda görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan yaşayış binalarının hər birində 34 mənzil yerləşir. Əvvəllər bu yaşayış binalarında lazımi kommunal-məişət şəraiti yox idi. 3 girişi olan binaların özülü möhkəmləndirilmiş, fasad və dəhlizlər yenidən qurulmuş, mənzillərin hər birinin sahəsi 30

Ardı 2-ci səhifədə





kvadratmetr artırılmışdır. Binalarda qapı və pəncərələr, su, kanalizasiya, elektrik, qaz və rabitə xətləri də dəyişdirilmiş, mərkəzi antenna sistemi qurulmuşdur.

Hər iki binanın həyətində də abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

Ali Məclisin Sədri Naxçıvan şəhərindəki qəzalı vəziyyətdə olan digər yaşayış binalarının yenidən qurulmasının davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan



***“Naxçıvan” Universitetində Heydər Əliyev lektoriyasının 18 Oktyabr – Dövlət Müstəqilliyi Günü ilə əlaqədar “Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda məşğələsi keçirilib.***

Məşğələni giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, Azərbaycanın müstəqil dövlətçilik tarixi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bütün mənalı ömrünü xalqımızın nicatına həsr etmiş dahi şəxsiyyət Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını yaradıb, ölkəmizin müstəqilliyinin qorunmasında və inkişaf etdirilməsində misilsiz xidmətlər göstərib. Ulu öndər Heydər Əliyevin prinsipiallığı, cəsarəti, milli ideyalara bağlılığı nəticəsində hələ sovet dövründə gələcəyin müstəqil Azərbaycanı naminə cəsarətli addımlar atılaraq Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit edilib, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin inkişafında ciddi nailiyyətlər əldə olunub.

Sonra AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin “Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda məruzəsi dinlənilib. Qeyd edilib ki, ötən əsrin sonlarında Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, müstəqilliyimiz xeyli çətinliklərlə qarşılaşıb. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb. Görkəmli dövlət xadiminin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi və digər tarixi qərarlar müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində ölkə parçalanmaqdan, vətəndaş müharibəsindən qurtulub, Azərbaycanda milli-ideoloji birliyin təməli qoyulub, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrilib. Dövlət quruculuğu sahəsində əldə olunmuş nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və sair bu kimi uğurlar Heydər Əliyev dühasının bəhrələridir. Məhz dahi liderin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlayaraq dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Ümummilli lider Heydər Əliyevin ***“Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!”*** fikri indi dünya dövlətləri sırasında günbəgün mövqeyini gücləndirən müstəqil Azərbaycanın simasında bir daha öz təsdiqini tapır.

Məşğələyə universitetin rektoru, professor İsmayıl Əliyev yekun vurub.



***Naxçıvan Müəllimlər İnstitutunda da Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib. Tədbiri giriş sözü ilə institutun rektoru, professor Oruc Həsənli açıb.***

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev “Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda çıxış edərək bildirib ki, tale Azərbaycana ötən əsrdə iki dəfə müstəqilliyini əldə etməyə imkan versə də, ikinci dəfə bu müstəqilliyin qorunub saxlanılması xalqımızın ümummilli lideri Heydər Əliyevin dərin zəkası, uzaqgörənliyi və xalqımız qarşısında əvəzolunmaz xidmətləri nəticəsində mümkün olub. Qeyd olunub ki, ölkəmizin müstəqilliyinin əsasları dahi şəxsiyyətin uzaqgörənliyi sayəsində hələ ötən əsrin yetmişinci illərində qoyulub. Məhz həmin dövrdən başlayaraq elm, təhsil, mədəniyyət və digər sahələrin inkişafında ciddi nailiyyətlər əldə edilib, Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit olunub, milli kadrların hazırlanması üçün mühüm addımlar atılıb.

Bildirilib ki, ötən əsrin sonlarında ulu öndərin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdışı bu qədim türk yurdunda müstəqillik ideyalarının inkişaf etdirilməsində mühüm rol oynayıb. Həmin dövrdə Naxçıvanda qəbul edilən tarixi qərarlar müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur.

Vurğulanıb ki, 1993-cü ilin iyununda xalqın təkidli tələbilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində ölkədə vətəndaş müharibəsinin qarşısı alınıb, torpaqlarımızın işğalına son qoyulub. Dahi lider 1994-cü ildə atəşkəsə nail olaraq ölkəmizin inkişafı üçün şərait yaradıb, xalqın gözlədiyi qurtuluş missiyasını reallaşdırıb. Ümummilli liderin hakimiyyətə qayıdışı Azərbaycana müstəqilliyi qorumağın nümunəsini, siyasi-iqtisadi sabitlik, hüquqi dövlət quruculuğu, vətəndaş qüruru gətirib. 1994-cü ildə “Əsrin müqaviləsi”nin bağlanması gənc Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiya etməsində, onun tranzit potensialının artmasında mühüm addım olub. Bu müqavilə Şərqlə Qərb arasında əməkdaşlıqda Azərbaycanın regiondakı liderliyini təmin edib. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunması isə ölkəmizin siyasi və iqtisadi həyatının hüquqi əsasda qurulmasında, hüquqi islahatların həyata keçirilməsində əhəmiyyətli rol oynayıb.

Məruzəçi bildirib ki, ötən dövrdə Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi ölkəmizin, eləcə də muxtar respublikamızın hərtərəfli inkişafına səbəb olub. Aparılan genişmiqyaslı tikinti-quruculuq işləri nəticəsində Naxçıvanın siması xeyli dəyişib, yerli xammala əsaslanan istehsal müəssisələrinin sayı artıb, nəticədə, muxtar respublikanın ixrac potensialı ildən-ilə daha da genişlənir. Bütün bu uğurlar isə ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və uğurla reallaşdırılan iqtisadi konsepsiyanın təntənəsi, müstəqilliyimizin bəhrələridir.

Tədbirə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli yekun vurub.

* * *

***Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq öz dövlət müstəqilliyini bərpa etdiyi tarixi gündən 25 il keçir. Müsəlman Şərqində ilk demokratik respublika olmuş Cümhuriyyətin bayrağını, himni və gerbini öz dövlət atributları kimi qəbul etməsi və 28 May gününün dövlət bayramı səviyyəsində qeyd edilməsi Azərbaycan Respublikasının 1918-ci ildə imzalanmış İstiqlal bəyannaməsinə və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsindəki xidmətlərinə dərin hörmət və ehtiramının təzahürüdür.***

Bu fikirlər Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə keçirilən Heydər Əliyev lektoriyasının növbəti məşğələsində səsləndirilib.

Məşğələni giriş sözü ilə açan məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Namiq Məmmədov tədbir iştirakçılarını müstəqilliyimizin 25 illiyi münasibətilə təbrik edib. Bildirib ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Vurğulanıb ki, ötən 25 il ərzində Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edə bilər. Uğurlu daxili və xarici siyasətimiz sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənib, iqtisadiyyatımız inkişaf edib, elm və təhsildə böyük uğurlara nail olunub. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir.

Məşğələdə Naxçıvan Dövlət Universitetinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanovun “Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda məruzəsi dinlənilib.

Qeyd edilib ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyi barədə qəbul edilmiş Konstitusiya Aktı xalqımızın siyasi həyatında tarixi hadisə oldu. Bu sənədlə Azərbaycan 1918-ci ilin 28 mayında istiqlaliyyət qazanmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi və suveren dövlət kimi beynəlxalq birliyin bərabərhüquqlu üzvü olduğunu dünyaya bəyan etdi.

Vurğulanıb ki, müstəqilliyin əldə edilməsi xalqımızın ən böyük sərvətidir və hər bir Azərbaycan vətəndaşı üçün müstəsna əhəmiyyət daşıyır. Lakin daxildəki çəkişmələr, ermənilərin 1988-ci ildən başladıqları və doxsanıncı illərin əvvəllərindən daha da genişləndirilən



işğalçılıq siyasəti dövlətimizin varlığını və suverenliyini sual altına qoydu. Məhz bu zaman xalqımız qarşılaşdığı fəlakətlərdən xilas, nicat yolunu ümummilli liderimiz Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında gördü. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında ali hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə ölkədə siyasi sabitlik yarandı, bütün sahələr üzrə quruculuq işlərinə başlandı. Ulu öndər ölkəni parçalanmaq təhlükəsindən qurtardı, dövlət müstəqilliyimizin əbədi və dönməz olmasını təmin etdi.

Bu illərdə əldə olunan uğurlu nəticələrə nəzər salarkən görürük ki, xalqımız 1993-cü ildə düzgün seçim edib, – deyən Elçin Zamanov məşğələ iştirakçılarının diqqətinə çatdırıb ki, ötən dövrdə müstəqilliyimizin möhkəmlənməsi, xalqın rifah halının yaxşılaşması, ölkənin sosial-iqtisadi inkişafı üçün nə mümkündürsə edilmişdir və edilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu strategiya nəticəsində ölkəmizin iqtisadiyyatı inkişaf sürətinə görə artıq neçə illərdir ki, dünyada yüksək yerlərdə qərar tutur. Qazanılan bu uğurların təməlində ulu öndər Heydər Əliyevin uzun müddətə hesablanmış siyasi-iqtisadi inkişaf proqramı, bu siyasətin ölkə başçısı tərəfindən ardıcıllıqla və yaradıcılıqla davam etdirilməsi dayanır. Dövlət başçısının rəhbərliyi altında Azərbaycan siyasi, sosial-iqtisadi və hərbi sahələrdə böyük nailiyyətlər qazanıb. Fəxrlə demək olar ki, artıq Azərbaycan dünya birliyində həm siyasi nüfuzuna, həm iqtisadi gücünə, həm də hərbi potensialına görə öncül yerlərdə dayanır.

Elçin Zamanov Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda iqtisadiyyatın inkişaf mərhələləri, aparılan məqsədyönlü islahatlar və qazanılan nailiyyətlər barədə də danışıb. Bildirib ki, 20 il bundan əvvəl Naxçıvanda dinamik inkişaf dövrü başlanıb. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasını təmin edib. İqtisadiyyatın dinamik inkişafını şərtləndirən məqsədyönlü tədbirlər əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Muxtar respublikamızın hər bir bölgəsini əhatə edən inkişaf bütün sahələrdə özünü göstərir. Ölkə Prezidentinin diqqət və qayğısı sayəsində regionda mühüm əhəmiyyət kəsb edən infrastruktur layihələri həyata keçirilir, sosial obyektlər tikilir, yeni istehsal və emal müəssisələri işə salınır, aqrar sahədə uğurlu nəticələrə nail olunur. Bu gün qürur duyuruq ki, ulu öndərin siyasəti sayəsində müstəqilliyi artıq sarsılmaz, dönməz və əbədi olmuş Azərbaycan Respublikasında yaşayır və qurub-yaradırıq.

**Xəbərlər şöbəsi**

*20 oktyabr energetika işçilərinin peşə bayramıdır*

# Muxtar respublikada enerji təhlükəsizliyi təmin edilmişdir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli Sərəncamına əsasən hər il oktyabrın 20-si ölkəmizdə energetika sahəsində çalışanların peşə bayramı günü kimi qeyd olunur.***

Azərbaycanda elektroenergetikanın inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsi, ölkədə enerji təhlükəsizliyinin təmin olunması istiqamətində gərgin fəaliyyət göstərmişdir. Ümummilli liderin səyləri və təşkilatçılığı sayəsində hər birinin gücü 300 meqavatlıq 8 blokdan ibarət olan Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının tikintisinə başlanıldı və istifadəyə verilən bu stansiya sayəsində Azərbaycan enerji sistemi bölgənin aparıcı sisteminə çevrildi. Həmin dövrdə İran İslam Respublikası ilə birgə tikilən 22 meqavatlıq Araz SES, 330 kilovoltluq Mingəçevir-Abşeron hava elektrik verilişi xətləri, yeni transformator yarımstansiyaları istismara verilmişdir. Müstəqillik illərində də ümummilli liderimiz ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunmasını diqqət mərkəzində saxlamış, bu sahənin maddi-texniki təchizatı xeyli gücləndirilmişdir.

Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkə iqtisadiyyatının digər sahələri kimi, elektrik enerjisi üzrə də proqramlar hazırlanaraq uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının həyata keçirilməsi iqtisadiyyatın hərəkətverici qüvvəsi olan elektrik enerjisi sistemində də inkişafı təmin etmişdir.



Ötən əsrin 90-cı illərinin əvvəllərində blokada şəraitində yaşayan Naxçıvan ciddi enerji böhranı ilə üzləşən zaman ulu öndərin apardığı danışıqlar nəticəsində 1993-cü ildə İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından isə 63 meqavat elektrik enerjisi nəqlinə başlanılmışdır. Bu dövrdən başlayaraq muxtar respublikada müxtəlif gücə malik olan transformator yarımstansiyaları quraşdırılmış, yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilmiş, idxal olunan elektrik enerjisinin itkisiz paylanması, avadanlıqların yüklənməsinin qarşısını almaq və enerji təchizatının etibarlılığını yüksəltmək məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qaz ilə işləmə rejiminə keçirilmiş, 220 kilovoltluq "Babək" yarımstansiyasında yenidənqurma işləri aparılmışdır. Həmin il ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası və Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası istismara verilmişdir. 2010-cu ildə isə 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyasının, 2014-cü ildə Arpaçay Su Anbarı üzərində 20,5 və 1,4 meqavat gücündə 2 su elektrik stansiyasının, 2015-ci ildə 20 meqavat gücündə Günəş elektrik stansiyasının tikilib istifadəyə verilməsi Naxçıvanın etibarlı enerji təminatına səbəb olmuşdur. Bütün bunların nəticəsidir ki, bir zamanlar yalnız idxal hesabına elektrik enerjisinə olan tələbatını qismən ödəyən Naxçıvanda bu gün daxili istehsal hesabına ən ucqar dağ kəndi belə, fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunur. Belə ki, muxtar respublikanın elektrik enerjisi tələbatı isti yay günlərində 80-85 meqavat, qalan dövrlərdə 50-55 meqavatdır. Hazırda muxtar respublikadakı 8 elektrik stansiyasının ümumi gücü 237,4 meqavat təşkil edir. Görülən işlərin nəticəsidir ki, Naxçıvanda alternativ və bərpa olunan elektrik stansiyalarında istehsal olunan enerji ümumi istehsalın 61,1 faizini təşkil edir.



Enerji təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlər əhalinin tələbatını ödəməklə yanaşı, həm də Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın davamlı inkişafını təmin etmişdir. Buna görə də enerji təchizatının yaxşılaşdırılması və müasirləşdirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada mövcud elektrik stansiyalarının, yarımstansiya və elektrik verilişi avadanlıqlarının təmiri ilə yanaşı, yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi sahəsində də mühüm işlər görülür. Hazırda Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Culfa rayonunda isə gələcəkdə külək elektrik stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılması üçün ölçmə işləri aparılır. Həmçinin gücü 14 meqavat olan Tivi Su Elektrik Stansiyasının və 3,5 meqavat olan Qazançı Su Elektrik Stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılması hazırlanır.

Muxtar respublikada istehsal olunan elektrik enerjisinin istehlakçılara fasiləsiz və keyfiyyətli çatdırılması məqsədilə yeni transformator yarımstansiyaları tikilir, mövcud olanlar yenidən qurulur. Son illər "Xal-xal", "Koroğlu", "Xalçaçılıq", "Şərur", "Naxçıvan", "Ordubad" və "Qıvraq" transformator yarımstansiyaları müasir şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda Şahbuz Rayon Elektrik Şəbəkəsi üçün yeni inzibati idarə binası və yeni 35/10 kilovoltluq transformator yarımstansiyasının tikintisi aparılır. Ümumiyyətlə, 2016-cı ilin ötən dövründə muxtar respublikanın şəhər və kəndlərində 28 yeni transformator qoyulmuş, 38 kilometr uzunluğunda elektrik verilişi xətləri çəkilmişdir.

Bu gün elektroenergetika sahəsində ixtisaslı kadr hazırlığına da xüsusi diqqət yetirilir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada elektrik stansiyalarının tikintisi və yenidən qurulması, elektrik təchizatı avadanlıqlarının quraşdırılması, bütövlükdə, yerli mütəxəssislər tərəfindən həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı bu sahədə mühüm nailiyyətlərin əldə olunmasına şərait yaradır. Gənclərin istehsal və iş sahələrinə cəlbi onların təcrübi biliklərinin möhkəmləndirilməsinə və peşəkar kadr kimi yetişməsinə imkan verir.

Muxtar respublikanın energetikləri elektrik enerjisindən səmərəli istifadə olunması, enerji itkisinin minimum səviyyədə saxlanılması və sərfiyyata uyğun enerji dəyərinin ödənişinin təmin olunmasında səylə çalışırlar. Bütün işlədicilərin istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün rəqəmsal elektron sayğaclar qoyulur, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilir. Hazırda Naxçıvan şəhərində smart-karttipli sayğacların quraşdırılması davam etdirilir. Həmçinin əməkdaşlar tərəfindən elektrik enerjisindən səmərəli istifadə edilməsi, israfçılığın, elektrik enerjisindən qanunsuz və sayğacdankənar istifadə edilməsinin qarşısının alınması məqsədilə mütəmadi reydlər keçirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin və onun yerli strukturlarının kollektivləri yaşayış məntəqələrinin, istehsal və xidmət sahələrinin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchizatını daim diqqət mərkəzində saxlayırlar. Energetika işçiləri bundan sonra da muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfələrini verəcəklər.***

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

# 96 illik blokadanın nəticələri

***Naxçıvan Muxtar Respublikasının materik Azərbaycanla əlaqəsi, əsasən, hava nəqliyyatı vasitəsilə gerçəkləşdirilir. Stabil olaraq gün ərzində 4 təyyarə reysi həyata keçirilir, xüsusi təqvimlərdə sərnişin sıxlığı yarananda reyslərin sayı 6-ya çatdırılır. Avtobus marşrutlarının sayı da çox deyil: gün ərzində 3-4 reys. İran ərazisindən gerçəkləşdirilən quru nəqliyyatı vaxt itkisi yaratdığından, əhali hava nəqliyyatını üstün tutur və beləliklə, təbii sıxlıq yaranır.***



Amma Ermənistanın Naxçıvan ətrafında qurduğu blokadanın yaratdığı problem təkcə 450 min nəfərlik əhalinin Bakı ilə intensiv əlaqəsinin təşkil edilməsiylə bitmir. Həllini gözləyən problemlərdən biri də yük daşımalarının asanlaşdırılmasıdır. Naxçıvanda istehsal olunan məhsulların ixrac məqsədilə daşınması, yaxud əksinə, idxal edilən yüklərin daşınmasını intensivləşdirmək üçün yeni vasitələr axtarılır. Ehtimal olunur ki, Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsindən sonra vəziyyət xeyli dəyişəcək.

Amma muxtar respublika əhalisi bu plan üzərində fokuslaşıb gözləmir. İqtisadiyyatın inkişafı üçün orijinal metod seçilib, blokada şəraitinə uyğunlaşdırılmış inkişaf planı hazırlanıb. Sakinlər deyirlər ki, Naxçıvanın blokadası, deyildiyi kimi, 1990-cı illərdən, Ermənistan-Azərbaycan müharibəsinin intensivləşməsindən sonra yaranmayıb. Blokada şəraiti qədim Azərbaycan torpağı olan Zəngəzurun 1920-ci ildə sovet rəhbərliyi tərəfindən Ermənistana verilməsindən, nəticədə, Naxçıvan Muxtar Respublikası ilə materik Azərbaycan arasında 45 km enində zolaq yaradılmasından sonra formalaşıb. Beləliklə, 96 ildir ki, davam edən blokada şəraiti həm yerli əhalini, həm də hökuməti bu şəraitə uyğun fəaliyyət göstərməyə vadar edib.

Ciddi çətinliklərə rəğmən sosial-iqtisadi inkişaf proqramları təxirə salınmayıb. Yerli sənaye, kənd təsərrüfatı inkişaf etdirilib. İstehsal daha çox yerli xammal üzərində cəmləşdirilib. Xüsusi yanaşma nəticəsində bu gün muxtar respublikada 360 növdə məhsul istehsal edilməsinə nail olunub. İstehsal edilən məhsullar da, ilk növbədə, yerli əhalinin tələbatının ödənilməsinə yönəldilir. Amma bununla yanaşı, ixrac edilmək üçün nəzərdə tutulan həm təbii məhsullar, həm də istehsal prosesindən keçən mallar var. İqtisadi inkişafın artım tempini təkcə bir faktla göstərmək olar ki, muxtar respublika büdcəsinin icrası üçün ayrılmış dotasiyanın həcmini ilbəil azaltmaq mümkün olub. Ötən illərlə müqayisədə dotasiyaların məbləği, təqribən, 1,5 dəfəyə qədər azalaraq 2016-cı il üçün 282 milyon 350 min manat olub. Diqqət büdcənin daxili mənbələr hesabına tamamlanmasına yönəlib. İstehsal müəssisələri artdıqca, iş yerlərinin də sayı çoxalıb. Təkcə 2016-cı ilin ilk altı ayı ərzində muxtar respublikada 1811 yeni iş yeri yaradılıb. Sakinlər deyirlər ki, indi iş axtarmaq, dolanışıq qurmaq üçün artıq Türkiyə və İrana üz tutmağa gərək qalmayıb.

Muxtar respublikanı vəziyyətdən çıxarmaq üçün hazırlanmış proqramlardan biri də turizmin inkişaf etdirilməsidir. Bakıdan gəlmiş KİV nümayəndələri üçün 14-15 oktyabrda təşkil edilən tanışlıq turu nəticəsində şahid olduq ki, muxtar respublika ərazisindəki bütün tarixi-mədəni abidələr yüksək səviyyədə bərpa edilib, turistlərin rahat gəlişi və yerləşdirilməsi üçün bütün tədbirlər alınıb. Əlincə qalası, Əshabi-Kəhf, Möminə xatın türbəsi kimi abidələrin tarixiliyi qorunmaq şərtilə bərpası və abadlaşdırılması tamamlanıb. Statistikaya görə, bu abidələrin ziyarəti üçün təkcə bu ilin 6 ayı ərzində (ilin ilk yarısında) muxtar respublikaya 187 min nəfərdən çox turist gəlib.

Duzdağ Fizioterapiya Mərkəzinin yenidən qurulması xaricdən müalicə məqsədilə gələnlərin də çoxalmasını stimullaşdırıb. Məlumat üçün bildirək ki, tənəffüs yollarının təbii yolla müalicəsini həyata keçirən Duzdağ Fizioterapiya Mərkəzi bənzər fəaliyyətlə məşğul olan dünyanın məşhur 3 müəssisəsindən biridir.

Diqqətçəkən məqamlardan biri də muxtar respublikanın bütün kənd və qəsəbələrində təhsil müəssisələrinin yenidən, modern standartlarla qurulması prosesinin tamamlanmasıdır. Səfər etdiyimiz 16 kəndin hər birində bunun əyani şahidi olduq. Yol infrastrukturunun qurulması da, demək olar ki, tamamlanıb. Məktəb, uşaq bağçaları, poliklinikalar, inzibati binaların təmiri, bərpası və ya yenidən qurulması yol tikintisi ilə paralel aparılıb və proses tamamlanıb. İndi muxtar respublikanın bütün kənd və qəsəbələrinə rahat, yüksək standartlı yollarla getmək mümkündür. Yaşıllaşdırma işlərinə də ciddi önəm verilib. Statistika üçün bildirək ki, 5,5 min kvadratkilometrlik muxtar respublika ərazisinin 90-cı illərdə yalnız 0,6 faizi yaşıllıqla örtülü olubsa, hazırda bu göstərici 12 faizə çatdırılıb. Yaşıllaşdırma işlərinə əlahiddə vəsait cəlb edilmir, bu iş artıq ənənəyə çevrilən iməciliklər vasitəsilə gerçəkləşdirilir. İməciliklər təkcə yaşıllıqların artırılması üçün təşkil edilmir. Ödənişsiz, el gücünə gerçəkləşdirilməsi mümkün olan bütün işlərə könüllü dəstək verilir. Əslində, Naxçıvan üçün xarakterik olaraq göstərilməsi vacib olan məqamlardan biri də məhz budur: vəhdətin təşkil edilməsi. 96 illik blokadanın stimullaşdırdığı proseslərdən biri də xalq-hakimiyyət vəhdətinin möhkəmlənməsidir. Qayda pozan, naxələflik edənləri təkcə qanunlar deyil, həm də ictimai qınaq cəzalandırır.

**Müşfiq ƏLƏSGƏRLİ**
***milli.az internet portalı***
***17 oktyabr 2016-cı il***

# Naxçıvan, Duzdağ mədəni: dəyərli arxeoloji xəzinə

***Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arxeoloji abidələrlə zəngindir. Ərazidə olan son arxeoloji kəşflər dünya üçün əhəmiyyətlidir, ərazinin qədim mədəniyyəti isə Avrasiyanın qədim tarixi üçün unikal əhəmiyyət kəsb edir. Dəyərli arxeoloji abidələrdən biri Duzdağ mədənidir. (Türk dilində: duz dağı mənasını ifadə edir).***

Duzdağ şaxtası Naxçıvan şəhərinin qərb hissəsindən 10 kilometr məsafədə qədim İpək Yolu üzərində olan dağlıq ərazidə yerləşir. Hazırda həmin yol Naxçıvan şəhəri ilə Türkiyə sərhədini birləşdirir. Duzdağ mədəni bu gün də fəaliyyət göstərir. Ağciyər xəstəliyi olan insanlar bu mədəndə speleoterapiya yolu ilə müalicə olunur. Azərbaycanlı mühəndislərin hesablamalarına görə, Duz dağında 150 metr qalınlığında duz qatı var və bu duz qatları bir neçə kilometr ərazini əhatə edir.

Bu gün yük vaqonları Duzdağın dərin mədənlərindən duz qayalarını şaxtanın ətraf ərazisində quraşdırılmış müasir zavoda daşıyır və həmin zavodda toz halına çevirərək yerli və beynəlxalq bazarlara ixrac edir. 1970-ci ildə müasir mədənçilər qazıntı işləri apararkən təsadüfən qədim tunelin divar qalıqlarını görmüş və dağıntı altında qalmış dörd mədənçinin daş alətləri ilə birlikdə dəfn olunduğunu aşkarlamışlar. Alətlərin tədqiqi zamanı məlum olmuşdur ki, uçmuş qədim tunel çox qədim dövrə aiddir. I Kültəpə abidəsinə istinadən demək olar ki, Duzdağ şaxtasından aşkar olunmuş alətlər Orta Tunc dövrünə aiddir. Professor V.Baxşəliyev apardığı arxeoloji araşdırmalara əsaslanaraq sübut edir ki, bu şaxtalardan duz çıxarılması daha erkən dövrə – Son Eneolit dövrünə təsadüf edir. 2007-ci ildə Fransa-Azərbaycan ekspedisiyası Duzdağda sistemli geoarxeoloji araşdırmalar aparmışdır. Araşdırmalar əsasında digər qırmızı rəngli yataqlar və çöküntülərin əksinə olaraq Duzdağ yamaclarında ağ rəngli gil qatlar və çöküntülər üzərində səpələnmiş yüzlərlə daş alətlər və saxsı qab parçaları tapılmışdır. Orada dağılmış və yaxud uçmuş onlarla dar mədən dəhlizi də aşkar edilmişdir. Aşkar olunmuş bütün mədən dəhlizləri yamacın ağ qatlarına doğru üfüqi xətt üzrə qazılmışdır. Mədən və oradan aşkar olunmuş çoxlu sayda keramika nümunələrinin tarixini müəyyənləşdirmək xüsusi tədqiqat tələb edir. Bu qədim nümunələrin ilkin təhlili göstərir ki, Duzdağda duz çıxarılması, əsasən, Erkən Tunc dövründə xüsusilə fəal olmuşdur. 2006-2007-ci illərdə aparılmış arxeoloji araşdırmalar nəticəsində toplanmış (300 ədəd) qırıq qab parçaları təsdiq edir ki, gil qab nümunələri Kür-Araz mədəniyyəti dövrünə aiddir. Aşkar edilmiş bütün dulusçuluq nümunələri, onlar arasında olan qazan qalıqları torpaq üzərində olduğu üçün və yaxşı qorunmadığından bu qabların Kür-Araz mədəniyyətinin erkən, yaxud son mərhələsinə aid olduğunu müəyyən etmək asan olmamışdır. Bozqara və qırmızı rəngli müxtəlif növ tipik Naxçıvan qulpları təsdiq edir ki, Duzdağda istehsal Erkən Tunc dövründən başlamışdır.



The author, Peter Tase, at the entrance of the historical site in Nakhchivan, Azerbaijan

Bu ərazidə Son Eneolit dövrünə aid qab nümunələri çox azdır (bu dövrə aid yalnız iki ədəd keramika aşkar olunub), lakin saman qarışıq həmin nümunələr təsdiq edir ki, Naxçıvanın bu hissəsi Son Eneolit dövründə çox mühüm əhəmiyyətə malik olmuşdur. Oradan həmçinin Orta Tunc dövrünə aid bir neçə qab nümunələri (üzəri qırmızı gil qatı ilə cilalanmış qara monoxrom boyalı qablar), Son Tunc dövrünə aid çölmək parçaları və az sayda Son Dəmir dövrünə aid saxsı qab nümunələri aşkar olunmuşdur. Araşdırmalar təsdiq edir ki, V minillikdən başlayaraq bu günə qədər Naxçıvan ərazisində olan Duzdağ dağından duz çıxarılır. Duzdağın cənub-qərb yamaclarından aşkar olunmuş bardaq tipli keramika nümunələri Erkən Dəmir dövrünə aiddir. Əlbəttə ki, aşkar olunmuş bu nümunə 2008-ci ilin maraqlı tapıntısıdır və dünyadakı arxeoloji əhəmiyyətinə görə Azərbaycanın bu regionunu son dərəcədə mühüm əraziyə çevirmişdir.

**Peter TASE**
***10.10.2016***
***Amerika Birləşmiş Ştatlarının “Foreign Policy News” qəzeti***

# Naxçıvan Muxtar Respublika spartakiadası keçirilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən məktəblilərin (2000-2002-ci illər təvəllüdlü) Naxçıvan Muxtar Respublika spartakiadası başa çatıb. İki gün davam edən spartakiada Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Basketbol, Şahmat və Yüngül Atletika federasiyaları tərəfindən təşkil olunmuşdu. Muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən spartakiada yüngül atletika, “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü, şahmat və basketbol növlərini əhatə edib.***



Spartakiadanın açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov bildirib ki, ölkəmizdə dövlət gənclər və idman siyasəti ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müəyyənləşdirilib. Bu sahədə aparılan məqsədyönlü siyasət nəticəsində yeniliklərə imza atılıb, Azərbaycanda böyük idman infrastrukturu yaradılıb, respublikamız dünyada idman ölkəsi kimi tanınmağa başlayıb. Bu gün Azərbaycan artıq beynəlxalq idman tədbirlərinin keçirilməsində böyük təcrübə əldə edib. Paytaxt Bakıda, eləcə də ölkəmizin digər şəhər və rayonlarında, həmçinin muxtar respublikamızda idmanın müxtəlif növləri üzrə Avropa, dünya çempionatları, beynəlxalq turnirlər keçirilir.

Vurğulanıb ki, Naxçıvanda bədən tərbiyəsi və idmanla məşğul olmaq gündəlik həyat tərzinə çevrilib. Gənc idmançılar nəsli yetişib, idman ustaları formalaşıbdır. Yeniyetmə və gənc qızların, sağlamlıq imkanları məhdud insanların idmana cəlbi istiqamətində ardıcıl işlər görülür. Yeni idman bölmələri yaradılıb, müxtəlif idman növləri üzrə bu bölmələrə yeniyetmə və gənclərin cəlb olunmasında artım müşahidə edilib. Naxçıvanlı idmançılar ölkə və dünya əhəmiyyətli yarışlarda təmsil olunur və uğurlara imza atırlar. Müstəqillik illərində muxtar respublikada idmanın maddi-texniki bazası xeyli möhkəmləndirilib. Müasir idman infrastrukturunun formalaşdırılması muxtar respublikada çoxsaylı beynəlxalq yarışların keçirilməsinə də şərait yaradıb.

Təhsilə və idmana göstərilən dövlət qayğısından danışan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən idmana qayğı siyasəti bu gün uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsidir ki, muxtar respublikamızda idmanın inkişafı təmin olunub, bu sahədə müasir infrastruktur yaradılıb. Bunun bariz nümunəsidir ki, son illərdə regionumuzda müasirtipli, hər cür maddi-texniki bazaya malik, informasiya texnologiyaları ilə təmin olunmuş məktəb binaları tikilib və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Həmin məktəblərdə idman zalları və açıq idman qurğuları yaradılıb. Bu gün muxtar respublikada aparılan idman siyasətinin təməlində idmanın kütləviliyinə nail olmaq, onu inkişaf və təbliğ etdirmək, sağlam nəsil yetişdirmək dayanır.

Sonra yarışlara start verilib.

Yüngül atletikanın 100, 200, 400, 800 və 1500 metr məsafələri üzrə keçirilən yarışlarda 8 komanda mübarizə aparıb. Oğlanların mübarizəsində 100 metrdə Kamil Əliyev (Şahbuz rayonu), 200 metrdə Rüstəm Baxşıyev (Naxçıvan şəhəri), 400 metrdə Sənan İmamquliyev (Şərur rayonu), 800 metrdə Kənan Hüseynzadə (Şərur rayonu) və 1500 metr məsafədə Cəmil Cəmilli (Şahbuz rayonu) bütün rəqiblərini geridə qoyaraq qalib adını qazanıblar. Qızlar arasında isə Gülü Cəfərova (Kəngərli rayonu), Aytən Rəhimova (Naxçıvan şəhəri), Gülayə Cəfərova (Sədərək rayonu) və Arzu Mustafayeva (Culfa rayonu) müvafiq olaraq təyin edilmiş 100, 200, 400 və 800 metr məsafələrdə finiş xəttinə hamıdan tez çatıblar.

Spartakiadanın yekun nəticəsinə əsasən, yüngül atletikada komanda hesabında “Şərur” komandası qalib adını qazanıb. Şahbuz atletləri ikinci, “Culfa” komandası isə üçüncü yerə layiq görülüb.

Naxçıvan Şahmat Mərkəzində isə zəka sahibləri birincilik uğrunda qüvvələrini sınayıblar. Yarışın yekun nəticəsinə əsasən, oğlanların mübarizəsində Naxçıvan şəhərinin şahmatçısı Pərviz Qasımov qalib adını qazanıb. Əli Qulamzadə (Culfa rayonu) və Kərim Rəhimov (Naxçıvan şəhəri) ikinci və üçüncü yerləri bölüşüblər. Qızların mübarizəsində isə Babək rayonunun təmsilçisi Fizzə İsmayılova bütün rəqiblərini qabaqlayıb. Şərurlu zəka sahibi Səbinə Məcnunlu ikinci, culfalı şahmatçı Aybəniz Hüseynova isə üçüncü olublar.

“Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə yarışın proqramına əsasən, 8 komandanın idmançıları 100 metr məsafəyə qaçış, qumbara atmaq, turnikdə dartınmaq, 2000 metr məsafəyə kross qaçışı, paralel qolda qolların tədricən yığılıb açılması və idman nərdivanını sürətli keçmək üzrə yarışlarda mübarizə aparıblar. Bu mərhələləri uğurla başa vuran “Naxçıvan” komandası qalib adını qazanıb. Babək məktəbliləri ikinci, Ordubad təmsilçiləri isə üçüncü olublar.

Basketbol növü üzrə yarışın qalibi adını isə “Ordubad” komandası qazanıb. Onlar finalda “Şərur” komandasını 32:28 hesabı ilə məğlub etməyi bacarıblar.

Sonda hər növdə qalib gələn idmançılara təşkilatçılar tərəfindən diplomlar və hədiyyələr təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## AMEA Naxçıvan Bölməsi

### *elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarında ştatda boş olan şöbə müdiri və laboratoriya rəhbəri vəzifələrini tutmaq üçün müsabiqə elan edir*

**Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə:**

*Arxeoloji xidmət şöbəsi*
Şöbə müdiri – 1 yer

**İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə:**

*Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsi*
Şöbə müdiri – 1 yer
*Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsi*
Şöbə müdiri – 1 yer
*Musiqi və teatr şöbəsi*
Şöbə müdiri – 1 yer
*Onomastika şöbəsi*
Şöbə müdiri – 1 yer
*Folklorşünaslıq şöbəsi*
Şöbə müdiri – 1 yer

**Təbii Ehtiyatlar İnstitutu üzrə:**

*Fiziki tədqiqatlar laboratoriyası*
Laboratoriya rəhbəri – 1 yer
*Filiz və qeyri-filiz yataqları laboratoriyası*
Laboratoriya rəhbəri – 1 yer
*Hidrogeologiya və mineral sular laboratoriyası*
Laboratoriya rəhbəri – 1 yer
*Avtomatlaşdırma və seysmologiya laboratoriyası*
Laboratoriya rəhbəri – 1 yer
*Coğrafiya şöbəsi*
Şöbə müdiri – 1 yer
*İqtisadiyyat şöbəsi*
Şöbə müdiri – 1 yer

**Bioresurslar İnstitutu üzrə:**

*Biokimyəvi tədqiqatlar laboratoriyası*
Laboratoriya rəhbəri – 1 yer
*Zooloji tədqiqatlar şöbəsi*
Şöbə müdiri – 1 yer

**Batabat Astrofizika Rəsədxanası üzrə:**

*Səma cisimlərinin mövqe müşahidələri şöbəsi*
Şöbə müdiri – 1 yer
*Səma cisimlərinin fotometriyası şöbəsi*
Şöbə müdiri – 1 yer

**Əlyazmalar Fondu üzrə:**

*Əlyazmaların toplanması şöbəsi*
Şöbə müdiri – 1 yer
*Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsi*
Şöbə müdiri – 1 yer
*Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası şöbəsi*
Şöbə müdiri – 1 yer

Müsabiqədə yerlərə uyğun olaraq elmlər doktorları, fəlsəfə doktorları iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir:

***Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76.***
***AMEA Naxçıvan Bölməsi***
***Təhsil və kadrlar şöbəsi***
***Telefon: 544-65-97; 545-16-80***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 11 noyabr 2016-cı ildə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| Sıra № | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 % həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | Fərdi yaşayış evi | Şahbuz rayonu, Biçənək kəndi | 262.000 | 13.100 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 7 noyabr 2016-cı il tarixədək ödənilməlidir.

Hərracda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Naxçıvan şəhəri, Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 11 noyabr 2016-cı il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcəkdir.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

### *Bildiriş*

“Ləman-2012” MMC ləğv olunduğundan fəaliyyətini dayandırır.

### *İtmişdir*

Naxçıvan şəhərinin Qaraçuq kəndində Murtuzayev Məhəmməd Həsən oğlunun adına 11.08.2015-ci il tarixdə verilmiş A-011799 nömrəli torpaq sahəsinin plan və ölçüsü və MH-0044173 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, “Əlincə” məhəlləsi, bina 18, mənzil 19-da qeydiyyatda olan Murtuzayev Məhəmməd Həsən oğlunun adına olan 8288 inventar nömrəli texniki pasport və MH-037672 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində yerləşən “SƏZ” MMC-yə məxsus 25 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Mustafayev Elşən Xudayət oğlunun adına verilmiş hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 780